آداب الزيارة

# ZİYARƏTİN ƏDƏBLƏRİ


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

İnsanları ziyarət etmək vacib bir məsələdir.

Bu qəribliyi aradan qaldırmaq, qəlbləri barışdırmaq və aralarındakı bağları gücləndirmək üçün bir səbəbdir.

Ziyarət ya valideyn və qohumları ziyarət etmək kimi vacibdir, ya da dost və yaxınları ziyarət etmək kimi müstəhəbdir.

Bu ziyarətlər üçün ziyarətçinin riayət etməli və nəzakətli davranmalı olduğu bir neçə şərii ədəblər var.

Bunlar:

- ☑ Ziyarətində xoş niyyətli olmaq və bu ziyarəti yalnız Allah ﷻ üçün etmək.
- ☑ Ziyarət zamanı qadağan olunmuş vaxtlardan uzaq olmaq. Sonra onun ziyarəti üçün uyğun vaxt seçmək.
- ☑ Ziyarətçinin ziyarət etdiyi kəsə ziyarət tarixini telefon və ya digər müasir əlaqə vasitələri ilə bildirmək.
- ☑ Evin əhlindən daxil olmaq üçün icazə almaq və onlara salam vermək.
- ☑ Qapının qarşısında deyil, qapının sağında və ya solunda durmaq.
- ☑ Ev sahibinin icazə verdiyi yerdə oturmaq.

- ☑ Evin eyiblərinə və məhrəmlərinə baxmamaq.
- ☑ Ev sahibinin öz icazəsi olmadan namazda imamlıq etməmək.
- ☑ Ziyarətini qısa etmək və uzatmamaq.
- ☑ Casusluq etməmək və ya ev əhlinin söhbətinə qulaq asmamaq.
- ☑ Ziyarətdə əcnəbi qadınlarla qarışmaq, əl sıxmaq və s. kimi şərli qadağalardan uzaq olmaq.
- ☑ Ziyarətçinin ziyarət etdiyi kəsə təşəkkür etmək və ziyarətinin sonunda onun üçün dua etmək.

Abu Hureyradan (Allah ondan razı olsun) gələn hədisdə, Peyğəmbər ﷺ belə dedi:

"Bir kişi başqa kənddə yaşayan (din) qardaşını ziyarətə getdi. Allah onun yoluna (insan cildində) mələk göndərdi. (Mələk) ona "hara gedirsən" dedi. O da, "bu kəntdə yaşayan (din) qardaşımı ziyatər etməyə" deyə cavab verdi. (Mələk) ona "ondan alacağın bir şey varmı" dedi. O da, "Xeyr. Mən sadəcə Uca Allah üçün onu sevirəm" deyə cavab verdi. (Mələk) ona dedi: Mən Allahın sənə göndərdiyi bir elçisiyəm. Sən onu Allah üçün sevdiyinə görə Allahda səni sevdi".[1]

[1] Muslim/2567